**Bakı şəhəri, Qaradağ rayonu, Lökbatan qəsəbəsi, Neftçilər küçəsi 13-də yerləşən "Qaradağ Maşınqayırma" Açıq Səhmdar Cəmyyətinin (ASC) Səhmdarlarının ümumi yığıncağının**

# PROTOKOLU

**Bakı şəhəri** **«30» İyun 2023-cü il**

Yığıncağın keçirilmə vaxtı - $11^{00}$

Yığıncağın keçirilmə yeri - ASC-nin Bakı şəhəri, Qaradağ rayonu, Lök-Batan qəsəbəsi, Neftçilər küçəsi 13-dəki inzibati binası

Ümumi yığıncağın gündəlikləri:

1. 2022- ci ilin illik hesabat məruzəsi
2. Qarşıda duran cari məsələlər haqqında hesabat

Ümumi yığıncaqda iştirak edən səhmdarların səsli səhmlərinin sayı 85085 ədəd olmuşdur. Bu da cəmi səhmlərin 69.8832 % təşkil etmışdir.

Ümumi yığıncaqda aşağıda göstərilən səsvermə hüququna malik olan səhmdarlar iştirak etmişlər.

| | | | |
|---|---|---|---|
| 1 | Atakişiyev Pirəli Güləli oğlu | 0.0115 % | 14 səhm |
| 2 | Aslanbəyov Nizami Sulyadinoviç oğlu | 0.1478 % | 180 səhm |
| 3 | Bədəlov Faiq Camal oğlu | 56.9004 % | 69278 səhm |
| 4 | Nuriyev İlham Nemət oğlu | 11.8888 % | 14475 səhm |
| 5 | Məlikova Gülüstan Valey qızı | 0,0345 % | 42 səhm |
| 6 | Nuriyev Elnur İlham oğlu | 0.9002 % | 1096 səhm |

Ümumi yığıncağı cəmiyyətin idarə heyətinin sədri Bədəlov Asif Kamal oğlu səhmdarları salamladı və yığıncağı açıq elan etdi. O, yığıncaqda 85085 ədəd səsli səhmlərin sahiblərinin iştirak etdiyi və bunun da mövcud qanunvericiliyə görə yığıncağın keçirilməsi üçün tələb olunan yetər saydan (69 %) – dən artıq olduğunu səhmdarların nəzərinə çatdırdı. Daha sonra idarə heyətinin sədri cəmiyyətin səhmdarlarının sayının 166 nəfər olduğunu nəzərə alaraq bu səbəbdən hesablama komissiyasının yaradılmasının vacib olduğunu bildirdi.

Səhmdar Məlikova Gülüstan Valey qızı tərəfindən say komissiyasına Atakişiyev Pirəli Gülalı oğlu, Nuriyev İlham Nemət oğlu namizədliyini irəli sürdü. Digər təkliflər olmadığından yığıncağı açan idarə heyətinin sədri təklifin səsə qoyulmasını iştirakçılardan xahiş etdi.

Səsvermənin nəticəsi aşağıdakı kimi olmuşdur:

Nuriyev İlham Nemət oğlu hesablama komissiyasının üzvi seçilməsinə dair:

Lehinə: 6 nəfər

Əleyhinə: yoxdur

Bitərəf: yoxdur

Təklif yekdilliklə qəbul olundu.

Atakişiyev Piralı Gülalı oğlu hesablama komissiyasının üzvi seçilməsinə dair:

Lehinə: 6 nəfər

Əleyhinə: yoxdur

Bitərəf: yoxdur

Təklif yekdilliklə qəbul olundu.

**QƏRARA ALINDI:**

Nuriyev İlham Neymət oğlu və Atakişiyev Piralı Gülalı oğlu say komissiyasının üzvləri seçilsinlər.

Daha sonra yığıncağa sədr və katibin seçilməsi üçün namizədlərin irəli sürülməsi təklif olundu.

Cəmiyyətin idarə heyətinin sədri Bədəlov Asif Kamal oğlu, Nuriyev İlham Nemət oğlunun yığıncağın sədrliyinə və Məlikova Gülüstan Valey qızının yığıncağın katibliyinə namizədliyini irəli sürdü.
Digər təkliflər olmadığından bu təklif səsə qoyuldu. Səsvermənin nəticəsi aşağıdakı kimi olmuşdur:
Nuriyev Elnur İlham oğlu yığıncağın sədri seçilməsinə dair:

Lehinə: 6 nəfər

Əleyhinə: yoxdur
Bitərəf: yoxdur
Təklif yekdilliklə qəbul olundu

Məlikova Gülüstan Valey qızı yığıncağın katibi seçilməsinə dair:

Lehinə: 6 nəfər

Əleyhinə: yoxdur

Bitərəf: yoxdur

Təklif yekdilliklə qəbul olundu.

**QƏRARA ALINDI:**

Nuriyev Elnur İlham oğlu yığıncağın sədri, Məlikova Gülüstan Valey qızı yığıncağın katibi seçilsin.

Yığıncağın sədri və katibi yerlərini tutduqdan sonra yığıncağın sədri səhmdarları gündəlikdə duran məsələlərlə tanış etdi. Sədr gündəliyin təsdiq edilməsini səsə qoydu.

Səsvermənin nəticəsi aşağıdakı kimi olmuşdur:

Yığıncağın gündəliyini təsdiq edilməsinə dair:

Lehinə: 6 nəfər

Əleyhinə: yoxdur

Bitərəf: yoxdur

Təklif yekdilliklə qəbul olundu.

Yığıncağın gündəliyi yekdilliklə təsdiq olundu

**QƏRARA ALINDI:**

Ümumi yığıncağın gündəliyi təsdiq edilsin.

Yığıncağın sədri gündəlikdə duran birinci məsələ ilə əlaqədar cəmiyyətin idarə heyətinin sədri Bədəlov Asif Kamal oğluna söz verildi. Məruzəçi 2022-ci ilə aid

hesabatı səhmdarların nəzərinə çatdırıldı. Bundan sonra iclasın sədri hesabatın təsdiq olunması üçün səsə qoyulmasını təklif etdi.

Səsvermənin nəticəsi aşağıdakı kimi olmuşdur:

Hesabatın təsdiqi səsə qoyulub:

Lehinə: 6 nəfər

Əleyhinə: yoxdur

Bitərəf: 0

## QƏRARA ALINDI:

Beləliklə illik hesabat təsdiq olunsun və müəssisənin fəaliyyəti qənaətbəxş hesab edilsi Bundan sonra sözü səhmdar cəmiyyətinin təftiş müfəttişi Hüseynov Sərdar M. oğluna verildi.

Məruzəçi yığıncaq iştirakçılarına geniş məlumat verdi.

Məruzəçi yığıncaq iştirakçılarına müəssisənin maliyyə - təsərrüfat fəaliyyətinin təftişi haqqında məlumat verdi.

Müəssisənin 2022-ci ildəki maliyyə durumu və istehsalı haqda yığıncaq iştirakçılarına çatdırıldı və təftiş olunan dövr təhlil olunaraq ciddi qüsür aşkar olunmadığı qeyd edildi.

Təftiş müfəttişinin hesabatı təsdiqi üçün səsə qoyuldu:

Lehinə: 6 nəfər

Əleyhinə: 0

Bitərəf: 0

# QƏRARA ALINDI:

Səhmdar Cəmiyyətinin təftiş müfəttişinin hesabatı təstiq edilsin.

Yığıncağın sədri Nuriyev Elnur İlham oğlu Cəmiyyətin sədri Bədəlov Asif Kamal oğluna söz verdi.

Cəmiyyətin sədri Bədəlov Asif Kamal oğlu müəssisənin fəaliyyəti və cari məsələlər haqqında geniş izahat verdi.

Bu il ərzində vəziyyt ilə əlaqədar olaraq sifarişlər tam olaraq azalmışdır. Yaranmış çətinliklərə baxmayaraq istehsalatın işləməsi üçün yeni sifarişlər əldə etməyə çalışırıq Bunun üçün iri səhmdarların köməyindən istifadə edirik.

Cəmiyyətin sədri Bədəlov Asif Kamal oğlu çıxış edərək bildirdi ki, 2023- cü ildə müəssisənin inkişafı və istehsalını yüksəltmək üçün var güvvəmizlə çalışacağıq.

Gündəlikdə duran məsələlər iştirakçılar tərəfindən müzakirə edildikdən sonra yığıncağın sədri Nuriyev Elnur İlham oğlu yığıncağı bağlı elan edərək, Səhmdarlara iştiraklarına görə öz təşəkkürünü bildirdi.

**Ümumi yığıncağın sədri:** __________ **E. İ. Nuriyev**

**Ümumi yığıncağın katibi:** __________ **G. V. Məlikova**